# *ETI-nin media əməkdaşı olduq*







29 yanvar 2014-cü ildə “JW Marriott Absheron” Hoteldə Sloveniyanın “ETI-Elektro Element” elektrik avadanlıqları şirkətinin təqdimatı keçirildi. ""Finansist"" tədbirin rəsmi media əməkdaşı oldu. Jurnalın Baş redaktoru Ramil Bağırov tədbirdə çıxış edərək ETİ Azərbaycan şirkətini bu uğurlu təqdimat münasibətilə təbrik etdi və şirkətə gələcək fəaliyyətində uğurlar arzuladı.

Təqdimatda "ETI- elektro element" şirkətinin vitse-prezidenti Peter Gasperlin və ETİ-Ukrayna nümayəndəliyinin xarici iqtisadi əlaqələr üzrə meneceri Andrey Apostaliuk müəssisənin istehsal etdiyi elektrik avadanlıqları barədə məlumat verdilər.

Tədbirdə Sloveniyanın "ETİ-elektro element" Konserninin Azərbaycanda rəsmi nümayəndəsi olan "ETİ-Azərbaycan " şirkətinin fəaliyyəti barədə də danışıldı. "ETİ-Azərbaycan " şirkətinin rəhbəri Aydın Məmmədov yaxın gələcəkdə bu əməkdaşlığın daha da uğurlu olacağını bildirdi.

Qeyd edək ki, "ETİ-Azərbaycan " şirkətinin əməkdaşları Azərbaycan, Sloveniya və Ukraynada xüsusi təlimlər keçiblər. Hazırda şirkətin yüksək ixtisaslı mütəxəssisləri digər şirkət və müəssisələrdə təlimlər keçirirlər.

"Finansist" ETI kollektivini ürəkdən təbrik edir və yüksək maliyyə göstəriciləri əldə etməsini arzu edir.





# Gənclərlə görüş

Fevralın 11-də APFM və "İrəli İctimai Birliyi" ilə bağlanmış memorandum çərçivəsində "İrəli"nin Təlim və Karyera Mərkəzində Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiasının İnfosystem-Link tədris mərkəzinin təlimçiləri tərəfindən Beynəlxalq mühasibat uçotu və beynəlxalq menecment proqramlarının tanıtım təlimi keçirildi.

Tədbirdə Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının əməkdaşları və təlimçiləri gənclərə təlim proqramlarının üstünlükləri və bu proqramların mütəxəssislərin iş bacarığının inkişafında oynadığı rol barədə ətraflı məlumat verdilər. Qeyd olundu ki, gəncələrə bu tədris proqramlarında iştirak etmək üçün xüsusi güzəştlər nəzərdə tutulur.

Layihənin həyata keçirilməsində məqsədimiz gəncləri maarifləndirmək, onlara yüksək ixtisaslı kadr kimi yetişmələrində dəstək olmaq və bununla da beynəlxalq standartlara cavab verən peşəkar mütəxəssislərin sayını artırmaqdır.

Təlim proqramları çox maraqla qarşılandı və gənclər təlimlərdə iştirak etmək arzularını bildirdilər. "İrəli İctimai Birliyi" ilə əməkdaşlıq çərçivəsində 2014-cü ildə gənclərlə müxtəlif ixtisaslar üzrə demo -treninqlərin (təlimlərin) keçirilməsi də nəzərdə tutulur.

